**S. Ə. Məmmədova, Y. Ə. Məmmədova, Ə. Ə. Qənbərova və Ə. R. Əliyevə "Azadlıq uğrunda mübariz" fəxri adının verilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası dövlətçiliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasında, Azərbaycan xalqına təcavüz edən cinayətkar ünsürlərə qarşı mübarizədə yüksək vətəndaşlıq nümunəsi, mərdlik və hünər göstərdiklərinə görə aşağıdakılara **"Azadlıq uğrunda mübariz"** fəxri adı verilsin:

**Məmmədov** Sayadulla Əsəd oğlu—Lənkəran şəhər konserv zavodunun fəhləsi,
**Məmmədov** Yaqub Ələsgər oğlu—Lənkəran şəhər elektrik şəbəkəsinin sürücüsü,
**Qənbərov** Əvəz Ələkbər oğlu—Lənkəran şəhər qaz-istismar idarəsinin sahə rəisi,
**Əliyev** Əbdülqəni Rəhman oğlu—"Ümid" şirkətinin fəhləsi.

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən**
**Azərbaycan Respublikası Ali Sovetinin sədri**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 5 sentyabr 1993-cü il.
763.